# MİLLİ-MƏNƏVİ İRSİMİZİN,



Azərbaycan qadınının cəmiyyətdəki rolunu, ictimai-siyasi fəaliyyətini, milli şüurunda, mənəviyyatında təzahür edən bir sıra keyfiyyətləri – diplomatik xüsusiyyətləri, xeyriyyəçilik əməllərini səciyyələndirən hadisələr zaman-zaman özünün inkişaf yollarında böyük mənəvi-əxlaqi dəyərlərlə müşayiət olunmuşdur. Bu mənada, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın da genişəhatəli fəaliyyəti tarixdə yaşamış nəcib, fədakar qadınlarımızın ibrətamiz həyatının, missiyasının yeni formada davamıdır. Dövlətçiliyimizin möhkəmlənməsində, gəncliyin yetişib formalaşmasında, fədakar çalışmalar, milli-mənəvi irsimizin, mədəniyyətimizin, təhsilin, səhiyyənin, idmanın inkişafına göstərdiyi qayğı birinci xanımın şəxsində maarifpərvər, vətənpərvər imicini formalaşdırmışdır...

Mehriban Əliyevanın timsalında düşünürəm ki, Uca Yaradan qadını işıq təki, ailəyə, yaşadığı cəmiyyətə, eləcə də bəşəriyyətə nur saçmaqdan ötrü, həm də şəfqətli, mərhəmətli, qəlbi daim ülvi hisslərlə dopdolu nəcib bir bəşər övladı kimi xəlq edib. Qadın özünün düşüncəsi, yaratdıqları ilə aləmi şəfqələrə boyamaq qüdrətindədir. Dünya sanki onun işığı ilə cilvələnmiş cazibədar bir həyat mənbəyidir. Elə bu səbəblərdən də yer aləmi qadının ziyası, varlığı ilə daha cazibəli və mənalıdır.

Qadın bütün ömrünü çiçəklərdən qətrə-qətrə şirə çəkən arı təki saf, təmiz duyğularla zənginləşməyə, qəlbində gözəlliklə süslənmiş mənəvi xəzinə yaratmağa həsr edir. Bu xəzinənin bitibtükənməyən varidatı ilə mənəvi-əxlaqi dəyərlərə zənginlik gətirir, övlad böyüdür, tərbiyə edir, onu həyatın istisinə, soyuğuna alışdırır. Qadın yaşam boyu həyat yollarında böyük mənalar, dəyərlər aramaqla bəşəriyyəti sülhə, əmin-amanlığa, apaydın sabahlara səsləyir. Bu ülviyyətə onun ictimai fəaliyyətini – vətənin çiçəklənməsi, xalqın sağlamlığı, firəvanlığı, dövlətçiliyimizin möhkəmlənməsi yolunda çalışmasını da əlavə etsək, qadının şəffaf, parlaq adının, varlığının cəmiyyət həyatını necə bir şəfəqlərə boyadıdığını dərindən dərk etmiş olarıq. Belə bir qüdrətə malik olduğundandır ki, qadın cəmiyyətin tərbiyəçisi adının halal haqqını qazanıb. Odur ki, Azərbaycan qadınları tarixən özünün nəcibliyi, şərəfi, mərdliyi və məğrurluğu ilə hər zaman ucada dayanıblar. Elə sözün, fikrin ilkin mənasında da qadın bir çox xüsusiyyətləri – möhkəmliyi, iradəli, qətiyyətli olması, xeyirxahlığı, nəcibliyi ilə həqiqətən də ucada dayanır.

Ümumiyyətlə, qadın təbiətən ülvi, müqəddəs bir bəşər övladı olduğundan Tanrı onun taxtını ucada qurub...

Mütləqdir, deyəm ki, dan üzünün yenicə söküldüyü anında, səhərin təzəcə açılsaçıl çağında bu duyğusal fikirlərin qəlbimdə baş qaldırmasına səbəb Mehriban xanım Əliyevanın öz həyatında xalqın taleyini yaşaması ecazıdır. Onun obrazına mükəmməlik gətirən ştrixləri canlandırmaq, bu fövqəlbəşər insanın həyatına, ictimai fəaliyyətinə işıq salmaq istəyimiz də güclü xarakterə malik dövlət xadiminə böyük maraqdan yaranıb.

Xalqa xidmət sahələri çox, bu istiqamətdə həyata keçirilən layihələrin, görülən işlərin sırası, miqdarı misilsiz... Bu mənada, Onun Vətənə, xalqa xidmətlərini bir araya gətirməklə yığcam bir məqalədə xarakterizə etmək sadəcə, mümkün deyil. Odur ki, indiki məqamda məramımız ilk gənclik çağlarından



ictimai mühitin mərkəzində olan və həyatının mənasını Vətəninə, xalqına xidmət etməkdə görən nəcib, xeyirxah əməllər sahibinin gəncliyimizə örnək olan ömür yoluna nəzər yetirməkdir. Çünki, xalq eldən ötrü yananları, Vətən və millət üçün çalışanları sevir, ona ehtiram göstərir. Düşünürəm ki, necə böyük qəlbə və idraka malik olasan ki, Tanrının sənə həvalə etdiyi missiyanı sevərək yerinə yetirməkdən, eləcə də ölkəni və xalqı nurlu sabahlara aparan yollarda daim axtarışlarda olmaqdan usanmayasan. Bunlar Birinci vitse-prezident Mehriban xanım Əliyevanın həyat amalı, yaşam tərzinin düsturu timsalındadır.

Mehriban xanım genişəhatəli fəaliyyətini qəlbinin səsi, ürəyinin saflığı, təfəkkürünün işığı, istiqanlılığı, nəcibliyi, xeyirxahlığı ilə həyata keçirir. Bunlar Onun həyat yolunu aydınladan ümdə keyfiyyətləri sırasındadır. Bütün mərhələlərdə görülən işləri böyük həssaslıqla, ən kiçik detallarına, incəliklərinə qədər izləməsi, proseslərin içərisində olması onun özəlliklərə qadir olduğunun aydın göstəricisidir.

Mehriban Əliyevanın ömrünü zinətləndirən xüsusiyyətlər bütövlükdə əməli fəaliyyətini ehtiva edən ölkənin, xalqın mənafeyinə hesablanmış böyük xidmətidir. Bu baxımdan, şərəfətli xanımı, Birinci vitse-prezidenti gördüyü işlərin fonunda qədərincə səciyyələndirmək olar. Qeyd edək ki, Onun ictimai fəaliyyətə qoşulduğu zaman Azərbaycanda xalqın milli oyanış dövrünün ilkin çağlarına təsadüf edir. Ulu öndərin təşəbbüsü ilə yaradılan və müəllifi olduğu Yeni Azərbaycan Partiyasının (1992) üzvü olaraq Vətənin çiçəklənməsi, xalqın milli təfəkkürünün yenilənməsi, insanların yeni güc, qüvvə ilə təkmilləşməsi, vətəndaş cəmiyyətinin yaradılması prosesinin fəal iştirakçısına çevrildi.

Mehriban Əliyeva 1995-ci ildə Azərbaycan Mədəniyyət Fondunun, 2002-ci ildə isə Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi çətin vəzifələrin məsuliyyətini öhdəsinə alaraq bütün işlərin ibtidasından başlayıb yorulmadan, səylə çalışdı. Unudulmuş, yaddan çıxmış sahələri köhnəlikdən, passivlikdən çıxararaq onlara yeni ictimai məzmun verən qlobal işlər gördü. Bütün çalışmaların mahiyyətində nüfuzlu ictimai xadim olan Mehriban Əliyevanın Azərbacan mədəniyyətinə yeni nəfəs gətirməsi, onun tarixi keçmişindən bəhrələnməklə bugünkü inkişafına təkan vermək amalı dayanırdı. Və tale onun çiyninə daha məsuliyyətli, ağır, həm də şərəfli bir yük qoydu. 2004-cü il mayın 10-da, ulu öndər Heydər Əliyevin doğum günündə təsis olunmuş Heydər Əliyev Fondunun Prezidenti kimi fəaliyyətə başladı. Fondun qarşıya qoyduğu məqsədlərlə tanış olanda birinci xanımın fəaliyyətinin əhatəsi insanı heyrətləndirir. Bu məqsəd "...milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına kömək etmək, əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirləri, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələri dəstəkləmək, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin reallaşdırılmasına yardım göstərməkdən ibarətdir".

Həmin illərdə Mehriban xanımın qəlbində Azərbaycan xalqının sosial-ictimai həyatına, onun mədəniyyətinə xidmət etmək istəyi dumduru axan bulaq təki çağladı. Düşünmək, çalışmaq, yeni yollar axtarmaq gərəkdi. O, işlərin və vəzifələrin həcmindən qorxmadan, böyük şövqlə, cəsarətlə fəaliyyət göstərirdi. Sonra bu fəaliyyət istiqamətləri həyatımızın böyük sahələrinə vüsətli şəkildə sirayət etdi. Xalqın mənafeyi yolunda yeni işlər görüldü, böyük təcrübə qazanıldı, uğurlar, irəliləyişlər, təkanlar, dəstəklər yarandı. Bu qədər irimiqyaslı işləri əhatə edən ictimai fəaliyyət ona bir qadın, ana kimi bağlandığı ailəsi qədər doğmalaşdı, şəxsi taleyinə çevridi. Azərbaycançılıq ənənələrini ləyaqətlə yaşatmasında Mehriban xanıma Heydər Əliyev məktəbinin böyük təsiri oldu. Bu məktəb onun şəxsiyyətində özünü ifadə edən alicənab, mərdanə, humanist cizgilərin daha da dolğunlaşmasına öz təsirini göstərdi. Belə nəcib və mübariz keyfiyyətlərə malik olduğundan yaranmış imkanlarını dövlətçiliyin möhkəmlənməsinə, vətənçilik əxlaqının yeni dəyərlərlə inkişafına səfərbər etdi. Heydər Əliyevin dövlətçilik konsepsiyasını, bununla paralel apardığı vətənçilik əxlaqını özünün müşahidələrdən, ictimai fikirlərdən öyrənmiş, yaxşı mənimsəmiş ümummilli liderin varisi Prezident İlham Əliyevlə birgə Vətən və xalq naminə azərbaycançılıq məfkurəsinin inkişaf etdirilməsində yeni yollar aradılar.

Bu gün mənəvi sərvətlərimizin, xüsusən də kökü çox dərinlərə işləmiş muğam və aşıq sənətimizin dünyada tanıdılması, təbliğ olunması və sevilməsi məhz Mehriban xanımın bu sahəyə göstərdiyi diqqəti, əməli köməyi sayəsində olmuşdur. Uşaqların, yeniyetmə gənclərin, gənc istedadların Vətən və xalq üçün yetişməsi və tərbiyə olunması Onun humanist və xeyirxah missiyasının aparıcı xəttinə çevrildi. Zənnimizcə, bu, Vətənə, xalqa qədirdanlıqla xidmət etməyin ən bariz nümunəsidir. Hələ illər öncədən başlamış "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi möhtəşəmliklə həyata keçirilmiş, bu gün də uğurla davam etdirilir.

Belə bir möhtəşəmlikdən qururlandığımız indiki anlarda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xariqüladə əməllərindən bəhs etmək də olduca xoşdur. Onun genişəhatəli fəaliyyəti müasir tariximizin parlaq səhifələrindən biridir. Mehriban xanım Əliyevanın genişəhatəli fəaliyyəti tarixdə yaşamış nəcib, fədakar qadınlarımızın ibrətamiz həyatının, missiyasının yeni formada davamıdır. Burada təkrir olaraq bir daha vurğulayırıq ki, dövlətçiliyimizin möhkəmlənməsində, gəncliyin yetişib-formalaşmasında, milli-mənəvi irsimizə, mədəniyyətimizə, təhsilin, səhiyyənin inkişafına qayğı göstərməsi birinci xanımın şəxsində maarifpərvər, vətənpərvər imicinin formalaşmasına səbəb olmuşdur.

2017-ci il fevralın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında ölkə başçısı Sərəncamla Mehriban xanım Əliyevanı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin etdi.

# MƏDƏNYYƏTİMİZİN HAMİSİ

Heç şübhəsiz, bu təyinat azərbaycançılıq məfkurəsinə bütün ictimai şüuru ilə bağlı olan, Vətən və xalq naminə işləməkdən zövq alan və bunu həyatının amalı hesab edən, taleyini ölkənin və xalqın taleyində yaşayan Mehriban Arif qızı Əliyevaya bəslənilən böyük etimadın, inamın bariz nümunəsi idi.

Bu mötəbər iclasda Onun görülən işlər barədə hesabat xarakterli çıxışı da icra olunmuş işlərin həqiqi nümunəsi idi. Mehriban Əliyevanın – "Biz fəxr edirik ki, son illər ölkəmizdə baş verən müsbət meyillərdə, dəyişikliklərdə, inkişafda, Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasında biz öz kiçik də olsa töhfəmizi verməyi bacarmışıq.

Mən əminəm ki, vəzifəsindən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır," – qətiyyətli fikirləri həyata, insanlara, onların gələcəyinə bəslədiyi ümidin, inamın apaydın təzahürüdür. Bu, Mehriban xanım Əliyevanın ölkənin beynəlxalq arenada nüfuzunun artmasına çalışacağına, yeni təşəbbüslərə, geniş miqyaslı layihələrə imza atacağına əminliyini bildirməsi idi. Burada diqqətimizi çəkən bir məsələ də, Mehriban xanımın görülən işləri, çəkilən zəhməti "mən" ifadəsi işlətmədən, ümumi şəkildə, Fondun adından, bu sahədə çalışan insanların xidməti, fəaliyyəti kimi ifadə etməsi oldu. Əslində bu, ölkənin birinci xanımının simasında, xarakterində nəzərə çarpan təvazö və səmimiyyətin ən incə, həm də dolğun ifadəsi idi.

Elə həmin gündən Birinci vitse-prezident kimi xalqa xidmət missiyası özünün axtarış istiqamətlərini daha da genişləndirdi. O, istər ölkədaxili, istərsə də beynəlxalq miqyasda həyata keçirdiyi bütün proqram və layihələrə həssaslıqla, milli təəssübkeşlik baxımından yanaşaraq böyük ideallara doğru əməllərini yeni layihələrin timsalında davam etdirdi. Vaxtilə cümhuriyyət qurucularının, maarifçi qadınlarımızın dinifanatizmin, savadsızlığın tüğyan etdiyi vaxtlarda Azərbaycanın tarixi taleyi ilə bağlı gördükləri milli-bəşəri əhəmiyyətli işlər bu gün Mehriban Əliyevanın genişəhatəli fəaliyyəti sayəsində yeni düşüncədə davam etdirilir. O, sözün həqiqi mənasında Cümhuriyyət dəyərlərinin ləyaqətli varisidir... Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi vətənin və xalqın taleyində, misilsiz rolu olacağına, ölkənin vüsətli inkişafına yeni və davamlı töhfələr verəcəyinə böyük inam yaratdı.

Bir məqamı da xatırladaq ki, Onun genişmiqyaslı fəaliyyəti ölkənin ictimai-sosial, mədəni həyatını əhatə etməklə tükənmir. Mehriban xanımın fövqəlbəşər fəaliyyəti dünya cəmiyyətində də böyük maraqla qarşılanır. Bu gün ictimai-sosial həyatımızın elə bir sahəsi yoxdur ki, Mehriban xanım ora nəzər yetirməsin, qayğısını göstərməsin. Xalqın sosial-mədəni həyatının inkişafında Birinci bitse-prezidentin xidmətləri misilsizdir. Gələcəyin sahibi olan balalarımızı yetişdirmək, onlarda ailəyə, Vətənə bağlılıq duyğuları aşılamaq, gəncləri vətənpərvər ruhda tərbiyə etmək – budur Mehriban xanımın istəyi. Onun nurlu çöhrəsindən sezilən mehribanlığı, alicənablığı, həssaslığı, nəcibliyi, yəqin ki, Birinci bitse-prezidentlə ünsiyyətdə olan, onun rəhbərliyi altında çalışan insanların böyük xoşbəxtliyidir.

Mehriban Əliyeva Azərbaycanın milli-mənəvi dəyərlərini, mədəniyyətini, ölkəmizin özünəməxsusluğunu, özəlliklərini dünya cəmiyyətində böyük fədakarlıqla, uğurla təbliğ edir. Qədim ənənələrimizlə bağlı multikultural dəyərləri, tolerantlığı başqa ölkələrdə əməli işləri ilə nümayiş etdirir. Unutmayaq ki, bütün bunlar əfsanəvi bir qəhrəman tərəfindən deyil, zərif, incə təbiətli, həm də güclü, aydın təfəkkürə, təxəyyülə malik olan qadının – ölkənin birinci xanımı Mehriban Əliyevanın bilavasitə çalışmaları sayəsində həyata keçirilir...

Sözün bu məqamında mədəniyyətimizin tarixində əlamətdar olan bir hadisəni də xatırlamağı vacib sanıram. Mart ayının əvvəlində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşündə bu panoram özünü bütün aydınlığı və şəffaflığı ilə göstərdi. Sənətkarlarımız adı çəkilən sahələrin uğurlarından, onlara göstərilən qayğıdan, ən başlıcası da qarşılaşdıqları problemlərdən söz açdılar. Hər kəs öz təklif və təşəbbüsləri ilə çıxış etdi. Ədalət naminə qeyd edək ki, sənətkarların arzu və istəklərini, ədəbiyyatımızın, mədəniyyətimizin və incəsənətimizin inkişafı, günü-gündən çiçəklənməsi üçün bundan sonra nə kimi tədbirlər görməyi, bir sözlə, sahənin bütün problemlərini həll etməyi, dövlət başçısı olaraq, köməklik göstərməyi Prezident İlham Əliyev sənətkarların öz dilindən eşitməyə imkan yaratdı. Hər kəsi səbrlə, diqqətlə dinlədi və deyilənlərə münasibətini bildirdi, yerindəcə əlaqədar qurumlara öz göstərişini verdi. Burda diqqətəlayiq məqamlardan biri də





bundan ibarət idi ki, ədəbiyyatımızın, mədəniyyətimizin və incəsənətimizin inkişafında, qarşıya çıxan çətinliklərin yerindəcə həllini tapmasında digər tərəfdən köməyə, dəstəyə ehtiyacı olanlara Birinci vitse-prezident Mehriban xanım Əliyevaynın da xidmətləri dilə gətirildi, bütün çıxışlarda birinci xanıma səmimi təşəkkürlər səsləndi. Mehriban xanımın gördüyü işlər, həyata keçirdiyi layihələr, ayrı-ayrı fərdlərə də qayğısı öz bəhrəsini verdiyindən, görüş iştirakçılarında xoş ovqat yaratdığı aydın görünürdü. Bu elə bir möhtəşəm, yadda qalan görüş oldu ki, inanırıq ki, xalq, xüsusilə də sənətkarlar hələ də o görüşün unudulmaz təəssüratları ilə yaşayır, yaşayacaq və bundan sonra da daha böyük əzmlə fəaliyyət göstərməyə çalışacaqlar.

Bu bir həqiqətdir ki, Vətənin əsl vətəndaşı olaraq, ölkənin inkişafı prosesində Mehriban xanım Əliyevanın xeyirxahlığı, mərhəməti, şəfqəti ilə var olması, xalqın taleyinə günəş təki saçması, geniş miqyaslı layihələri ilə bütün sahələrdə yeniliklərin yaranmasına, həyatımızın sürəkli inkişafına səbəb oldu. Əslində, o, özünün işıqlı əməlləri, maarifçilik fəaliyyəti, xeyirxahlığı ilə tarixdə izi qalan bəsirətli qadınlarımızın ideyalarını bu gün daha geniş anlamda davam etdirən nəcib bir xanım, dövlət adamıdır. Cəsarəti, təfəkkürünün işığı, istedadı ilə bütün həyatını xalqın, ölkənin inkişafına həsr edən bu böyük şəxsiyyətin, vətən sevdalısının işıqlı əməllərindən necə duyğulanmayasan!

Bütün bunlar Mehriban Əliyevanın xalqın adamı olduğunun, insansevərliyinin, vətənsevərliyinin, milli ruha, kökə bağlılığının təcəssümüdür. Bunların timsalında onun özünün inkişafı xalqın, Vətənin inkişafı ilə bağlı olmuşdur. Bu axarın gətirdiyi yeni, həm də məsuliyyətli vəzifə, zərif çiyinlərə qoyulan missiya onun çoxşaxəli fəaliyyətinin uğurlu davamı kimi qiymətləndirilməlidir. İki gücün, qoşa qanadın - Prezident İlham Əliyevlə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xalqa, vətənə vicdanla, ləyaqətlə xidmətindən yararlanan yenə vətəndir, xalqın özüdür.

Belə bir möhtəşəmlikdən qururlandığımız indiki anlarda Azərbaycanın bugünkü mənzərəsindən heyrətlənməmək olmur. Bu mənzərəni özünün ecazı, azərbaycançılıq məfkurəsi, vətənçilik əxlaqı ilə daha da rövnəqli edən Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xariqülادə əməllərindən bəhs etmək də olduca xoşdur. Onun genişəhatəli fəaliyyəti müasir tariximizin parlaq səhifələrindən biridir.

Mehriban xanımın qurub-yaratmaq və yaşatmaq eşqi tükənməyən bir işıq selidir, bu hərarəti, şəfqəti duymaq, ondan faydalanmaq böyük xoşbəxtlikdir. Bir daha qeyd edirik ki, xalqın sosial-mədəni həyatının inkişafında onun xidmətləri misilsizdir. Gələcəyin sahibi olan balalarımızı yetişdirmək, ailəyə, Vətənə bağlılıq duyğuları aşılamaq, gəncliyə yol açmaq, onları vətənpərvər ruhda tərbiyə etmək – budur Mehriban xanımın istəyi.

Mehriban xanım Əliyeva dövlət xadimi olaraq, ictimai-siyasi fəaliyyətində və dünyanın inkişaf etmiş ölkələri ilə qurduğu ədəbi-mədəni əlaqələrində, işgüzar münasibətlərində fərqləndiyinə görə bir çox yüksək mükafatlara, təltiflərə layiq görülüb. Bunların sırasında həm Azərbaycanda, həm də digər dövlətlər tərəfindən verilmiş çoxlu sayda orden və medallar, Fəxri adlar onun tərcümeyi-halında şərəfli bir səhifəni təşkil edir. Burada böyük fərəh hissilə xatırlatmaq istəyirik ki, 2015-ci ildə Azərbaycanda keçirilən I Avropa Oyunlarının qələbə ilə başa çatmasında "Bakı-2015" I Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın 29 iyun 2015-ci il tarixində "Heydər Əliyev" ordeni ilə təltif olunması zənnimizcə ona indiyədək layiq görüldüyü saysız mükafatlardan daha çox sevinc hissi yaşatdı, onu çox duyğulandırdı. Bu mükafat onun halal haqqı idi. Elə yaxın günlərdə Rusiya Prezidenti Vladimir Putinin Fərmanı ilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiya Federasiyasının "Dostluq" ordeni ilə təltif olunması onun iki ölkə arasında apardığı dostluq əlaqələrinin vüsətli inkişafında xidmətlərinə verilən yüksək etimad və ehtiramın ifadəsi idi...

İllər boyunca apardığım mü-şahidələr birinci xanımın haqqında qənaətimi hər zaman xatırlamağıma yol açır. İndiki məqamda sözümə yekun olaraq, hər vaxt könlümdə, dilimdə olan fikri təkrar etməyə ehtiyac duydum: Mehriban Əliyeva bütün hallarda – çətin və mürəkkəb situasiyalarda, xoş, fərəhli anlarında belə dəyişməzdir: dəyanətli, güclü, qətiyyətli və bütövdür. Hər yerdə, hər zaman özüdür. Ən ümdəsi də olduğu kimi görünən bir inci, nur timsalında fövqəlbəşər İnsandır...

**Şəfəq NASİR,**

***"Respublika" qəzeti №184(6511), 25 avqust 2019-cu il***